MƏDƏNİYYƏT

# Ramiz Quliyevin 65 yaşı tamam olur

## MƏŞHUR TARZƏN AZƏRBAYCAN MUSİQİ İFAÇILIĞI SƏNƏTİNDƏ BÖYÜK İZ QOYMUŞ PARLAQ SƏNƏTKARLARDAN BİRİDİR



**APRELİN 30-da görkəmli musiqiçi, Azərbaycanın xalq artisti, professor, "Şöhrət" ordenli tarzən Ramiz Quliyevin 65 yaşı tamam olur. Məşhur tarzən Azərbaycan musiqi ifaçılığı sənətində böyük iz qoymuş parlaq sənətkarlardan biridir. XX əsrin 60-cı illərində təməli qoyulmuş müasir tar ifaçılığı məktəbinin yaranması və təşəkkülü onun adı ilə bağlıdır. Hal-hazırda Azərbaycan xalq musiqisini sevənlər arasında elə bir şəxs tapılmaz ki, tarın virtuoz ifaçısı, milli muğamlarımızın mahir bilicisi olan Ramiz Quliyevin yaradıcılığı ilə tanış olmasın.**

Onun xarici ölkələrə qastrolları da həmişə uğurla keçərək, böyük rezonans doğurmuşdur. R.Quliyevin tarı Türkiyə, Əfqanıstan, Qvineya-Bisau, Suriya, Hollandiya, İsveçrə, ADR, Pakistan, Əlcəzair, Tunis, AFR, Hindistan, Yaponiya, ABŞ, Kanada, Polşa, Danimarka, İran, İraq, Fransa, İngiltərə, Avstriya, İsrail, Norveç, Moldova və dünyanın digər ölkələrində heyranlıqla qarşılanmış, harada konsert vermişsə, həmişə müvəffəqiyyət qazanmışdır. 1974-cü ilin iyun ayında musiqiçilərin Zaqafqaziya festivalında ona birinci mükafata, həmin ilin oktyabr ayında isə Moskvada keçirilən estrada artistlərinin V Ümumittifaq müsabiqəsində 1100 nəfər iştirakçı arasında laureat adına layiq görülmüşdür.

*1987-ci ildə Səmərqənddə keçirilən III Beynəlxalq musiqişünaslıq simpoziumunda R.Quliyev Sadıqcan adına muğam üçlüyünün rəhbəri və solisti kimi böyük müvəffəqiyyətlə çıxış etmişdir.*

1988-ci ildə YUNESKO xətti ilə ABŞ-da keçirilən Beynəlxalq folklor festivalındakı uğurlu çıxışından sonra o, yüksək ifaçılıq məharətinə görə komitə rəhbərliyinin xüsusi diplomuna layiq görülmüşdür. 1989-cu ildə isə R.Quliyev ənənəvi "Böyük ipək yolu" festivalına dəvət olunaraq, 40 gün ərzində Yaponiyanın 30-dan artıq şəhərlərində konsertlər vermişdir.

*Görkəmli tarzən yorulmaz ifaçılıq fəaliyyəti ilə yanaşı, pedaqoji sahəyə də çoxlu güc və qüvvə sərf edir. Artıq bir çox illərdir ki, Ramiz Quliyev gənc ifaçı və müəllimlərin böyük bir ordusunu yetişdirməklə, Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasında öz pedaqoji fəaliyyətini davam etdirir.* Onun xarici və Azərbaycan bəstəkarlarının tar ilə fortepiano üçün işləyib, köçürdüyü bir çox olduqca dəyərli əsərləri çapdan çıxmışdır. R.Quliyev bir sıra dərsliklərin, proqramların, elmi məqalələrin və metodiki tövsiyələrin müəllifidir. 40 ildən artıq bir müddətdə professor R.Quliyevin sinfini bitirmiş tələbələr Azərbaycanın ali və orta ixtisas tədris müəssisələrində, orkestr və ansambllarda, eləcə də xarici ölkələrdə fəaliyyətlərini davam etdirirlər.

*"İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 may 2002-ci il tarixli fərmanına uyğun olaraq, uğurlu səhnə fəaliyyətinə görə Ramiz Quliyev 26 iyul 2002-ci və 5 iyul 2003-cü illərdə Azərbaycan Respublikası Prezidentinin mükafatı ilə təltif olunmuşdur. 2007-ci ilin may ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Ramiz Quliyev musiqi sənətinin inkişafındakı xidmətlərinə görə ölkənin ən yüksək mükafatı "Şöhrət Ordeni" ilə təltif olunmuşdur.*